

Allahverdi Eminov

# Səməd Vurğunun "Həyat fəlsəfəsi" şeiri: İnsanın duyum hikməti...

**Müəllifdən: Son on illərdir milli ədəbiyyatımızın Sovet dövrünə qarşı bəzi yaradıcı ziyalılarımız çamur atmaqla məşğuldur, səbəb nədir? Çox götür - qoydan sonra təxmini o qənaətə gəlirsən ki, on illərlə poeziyada, nəsrdə, dramaturgiyada, hətta ədəbi tənqiddə boş - bekar vurnuxanlar, özlərini ədəbiyyat cəbhəsində "şikəst" əsgər kimi heç nəyə yaramayıb, adı ordu siyahısına düşənlər kimi aparanlar imzaları naminə nihilist xəstəliyinə tutulmuşlardır! Bu da bir tərəfə: kəskin desəm - fiziki xəstələrdir, içindən ağrıyırlar ki, mən 20-30 il (və daha çox) ərzində poeziyada, yaxud nəsrdə onlarla şeir kitabları çap etdirdi (bu, yüzlərlə şeir deməkdir), müxtəlif zövqlü oxucular nəsli qəbul etmədi. Əgər bu cür ədalətli qərara gəlmişlərsə, onların qəbahətlərini bağışlamağa dəyər.**

***(Əvvəli ötən sayımızda)***

Vaxtilə tənqidçilərin şeirdə fəlsəfəçilik "axtarışı" düçarlığına aydınlıq gətirməli olsaq, bilməliyik ki, S.Vurğun Dövranla İnsanın poetik "dialoqunda" onu göstərir ki, varlığın - həyatın mənəvi mənimsənilməsinin bir forması da insan anlamağa borcludur təbiətdə, həyatda heç bir şey donuq deyil, dəyişir, fəlsəfəçiliyə gəldikdə isə biri mahiyyətin (deyək ki, reallığın) inikasına, digəri gerçəkliyin tərənnümünə yönəlir - hər ikisi hərəkətdədir. Daha doğrusu, poeziya (bədii yaradıcılıq) fəlsəfədə öz konseptual söykənəcəyini, fəlsəfə incəsənətdə (poeziyada) - varlığın həyati axarlığının bilavasitə ifadəsini tapır. Poetik formuləsi budur.

**Dəyişir səmtini daima sular,**
**Dəyişir fikirlər, dönür duyğular.**
**Kainat tutmayır bir yerdə qərar,**
**Çırpır sinəsini qayalıqlara -**
**O gah qışa çıxır, gah da bahara!**

Şeirdə S.Vurğun "İnsan" anlayışında fəlsəfəçilik iddiasına düşməmişdir. Dünyanın dinamikasında - müsbət və mənfiliyə meyilliyində birincini günahlandırmamışdır konkret subyekt kimi. Daima səadəti səsləmişdir:

**Dünya binasını qurandan bəri**
**Səadət adlanan o gözəl pəri**
**Gəl - deyə səsləmiş qərinələri.**

Şair "Səadət"i dünyanın əzəlində, içərisində götürür, mahiyyətində bu anlayışın fəziləti və həqiqəti dayanır. Səadət - xoşbəxtlikdə müstəbid olmaq yaramaz, mövcud cəmiyyət bundan qaçmalıdır. Fransız filosofu və yazıçısı Fransiya Volter (1694-1778) səadəti insanda təbii instikt hesab etmişdir. "Bunu boğmaq, insanın hisslərini və ehtiraslarını öldürmək insanın özünü məhv etməkdir. İnsanı ehtiraslardan məhrum etmək, onun bütün qanını bədənindən sorub çıxarmaq deməkdir".

Belə düşüncələrin nikbinliyində şairin təəssüfü səslənir:

**Yazıqlar olsun ki, hələ insanlıq**
**Gəlib qovuşmamış ona bir anlıq.**

Məşhur fransız filosofu Pol Anri Holbax (1723-1789) yazırdı ki, insanpərvərlik insan cəmiyyətini, insan nəslinin həyatını qoruyub saxlamaq üçün zəruridir. S.Vurğun qərb fəlsəfi fikrilə tanış idi, bunu başqa şeirlərində, poemalarında aydın görürük. İnsaniyyəti şeirin ilk misralarında (bəndələrində) hallandırmışsa bu təsadüfi deyil. İnsaniyyət fəzilətin atributu olmaqla digər fəzilətlərin kvintessiyasıdır, insanı sevmə hissidir. Ancaq insanlıq uzaqdadırsa mərhəmət, məhəbbət hissləri diqqətdədir.

**Ey dünya gözəli, qaçma bəşərdən!**
**İnsandır ayıran xeyiri şərdən...**
**Gəl, onun eşqini ucuz tutma sən.**
**Qəlbi var, hissi var hər məhəbbətin,**
**Qaralmaz ulduzu əbədiyyətin!**

Müşahidələr, bədii araşdırmalar, fəlsəfi fikirlər daima insan problemilə məşğul olmuşdur - hüdudsuz maraq dairəsinə baxmayaraq. İnsanın taleyi, həyatda yeri, vəzifəsi - bunlar insan varlığının mənasını açmışdır.

"Həyat fəlsəfəsin"də müəllifin həyatın qorxunc qanunu qarşısında ittihamı dayanır. Ölüm və İblis! İkinci birincidən daha qorxuludur, çün ölümün gəlişini inkar edən bir insan hələlik yoxdur - alın yazısıdır. İblissə hər an qarşıya çıxa bilər, sakit həyatı alt - üst edər. Sual çıxarmaq olar şeirdən: həyat birdəfəlikdir, təkrar deyil, bəs, niyə İblisi də qarşılayır?

**Ölüm bir İblisdir, həyat bir mələk!**
**Varlığı izləyir, heçlik kölgə tək...**
**İşıq qaranlıqla pəncələşərək,**
**Yaşatmaq istəyir cahanda bizi,**
**Günəş salamlayır iradəmizi.**

S.Vurğun fəlsəfi mühakimələrdən, nəzəriyyələrdən xəbərsiz deyildi - insanın mövcudluğunu təsdiqləyən ekzistensializmdən də məlumatlı idi və təsadüfi deyildi. "İnsan" dramında F.Nitşe dünyagörüşünə bədii münasibətini bildirmişdi, sovet ideologiyasının təsirindən çıxmamışdı. Və əxlaq problemlərinə gəlib çıxmışdı. Bu şeirdə şair insanın iradə möhkəmliyinə işarə vurmur, baxmayaraq dünyanın fəlsəfi predmeti kimi başa düşülən insan öz təriflərindən birinə, deyək ki, o iradəyə aid edilirdi. Təsadüfi götürməyək ki, alman filosofu A.Şopenhauer insan iradəsinə qiymət verərkən, insanın mövcudluğundan kənara çıxır və bu, kosmik məzmun alırdı. İnsan idrakı hər şeyə qadir olduğu halda nə üçün İblislə bacarmır, bəlkə mistik obraz hesab edir. Olsun, bəs niyə özünü ölümdən qabaq sanır.

...Real insan təbii və sosial ölçüsündə qeyri - həqiqi varlıq sahəsi yaradır, bəlkə iblis də birisi olsun. Ölümün əlindən qaçmaq iqtidarını itirmiş insanın varlığı ekzisistensiyadır. Həyat bir mələkdir, heçliksə kölgədirsə, işıq qaranlıqla pəncələşirsə, deməli, insan yaşamaq istəyir, mövcudluğunu saxlamaq əzmini itirmir. İnsan real əxlaqı qorumalıdır. Həyatda pisliklərdən, fəsadlardan qaçmalıdır, çün o, mənəvi - əxlaqi proseslərin içindədir, təbii və sosial müəyyənliklərə malikdir. Lakin öz günahlarını zamanın, gərdişin üzərinə atmamalıdır, əks təqdirdə simasızlaşır, yabançılaşır, qisasçı fərdə çevrilir. Sosial əxlaqı onun simasını oğurlayır. Bəlkə bir halda insan yamanlıqla yaxşılığı, fəsadla xeyirxahlığı üz-üzə qoymalıdır, baxmayaraq, bəşər nəslinin yaranmasından hər iki anlayış özünü diktə etmişdir. Şəxsiyyətin əleyhinə yönəldilmişdir. O məqama şair toxunur və ritorik pafosla deyir:

**Yamanlıq, yaxşılıq durmuş üz-üzə,**
**Dilsiz əsrlərdən mirasdır bizə.**
**Əsir bahar yeli qəlblərimizə,**
**Lakin arxasınca kəfən geyir qış,**
**Təbiət varlığa belə qarğamış.**
**Bir bayram sözü var, bir də ki, matəm,**
**Nəşə bir aləmdir, qüssə bir aləm.**
**Həyat öz atını sürür dəmadəm,**
**Odlar içində də hər bir mənzərə**
**Yenə qanad verir düşüncələrə!**

S.Vurğun poetik ricətlə insan xislətindəki yamanlığı katarsisə çağırır. Həyatın yalnız iki üzü var: pis və yaxşı. Əxlaq qaydaları anti - insan prinsiplərinə rəvac verirsə, insan dünya ilə barışmalıdırmı? Onsuz da o, atını çapır, hey çapır, "solu"nda pislikdir, "sağı"nda yaxşılıq. Etiraz etməlidir? - sualın cavabıdır. Yazıçı A.Kamyu yazır: "Mən etiraz edirəm, deməli, mən mövcudam". Dünyanı fəsada doğru fırladan insanın özüdür, yəni əxlaqıdır, bu mənada, həyatda davranışını istiqamətləndirməkdə insana yardımçı olmalıdır. S.Vurğun yenə insanın böyüklüyünü, müdrikliyini, fəzilətini önə çəkir və nikbinliyini itirmir.



**Yenə də insanın xəyal şahpəri**
**Gəzir fəzaları, göy dənizləri.**
**Sən səadətin gözəl səhəri!**
**Alqışla insanın pak əməlini,**
**Uzat yer üzünə hünər əlini.**

S.Vurğun pessimist deyildi və bu hissi aşılayan filosofları qəbul etmirdi. Məsələn, ingilis hüquqşünası, əxlaqçısı İ.Bentamin (1748-1882) insan davranışında "fayda"nı lazımınca qiymətləndirmir, şeirin poetikası nöqteyi -nəzərindən İ.Bentama görə, insan bütün hərəkətlərində, davranışlarında öz mənafeyini güdür, insan varlığı ərzində eqoistdir, eqoist olaraq qalır. S.Vurğun poetik kredosuna sadiq qalaraq insanı hünər meydanında görmək istəyir, "xoşbəxtlik balansı"nın pozulmasını arzu edir. Hünər bütün kainatı qüdrətli əliylə işıqlandıra bilər.

**...Hünər söylədiyim o qüdrətli əl**
**Bütün kainata qoy qanad gərsin,**
**Bəşər karvanına o yol göstərsin.**

**Hünər qanad versin torpağa, daşa,**
**Dənizlər çatılıb gəlsin baş-başa.**
**Azadlıq ordusu varsın baş-başa,**
**Hər zəfər dastanı yadigar olsun,**
**Ölüm təslim olsun, həyat var olsun!**

Bəs "həyat nədir" ki şair ölümün təslimçiliyinə həyatın təntənəsini qoyur. Filosof H.Spenser (1820-1903) "Həyat nədir?" sualına cavabında deyir: "Həyat daxili münasibətlərini daimi surətdə və müntəzəm olaraq xarici münasibətlərə uyğunlaşmasından başqa bir şey deyildir". İnsan həm daxili, həm də xarici mühitə adaptasiya olmaqla hünər göstərir və ölümünə məcazi mənada qalib gəlir, zəfər, qələbə dastanını yazan insan fiziki həyatla mənəvi həyat arasında uyğunlaşma tapırsa, ən yüksək əxlaqi davranışa sahib kəsilər, "əxlaqilik - insanın sosial mühitə ən mükəmməl uyğunlaşması" kəlamı filosofa məxsusdur...

İnsan dünyanın əşrəfidir - deyən dahi Nizami heç də yanılmamışdır. Əgər əxlaqın sabitliyi, cəmiyyətin, konkret götürsək, həyatın tərəfindədirsə, mövcud sosial münasibətlərin hər cür tənqidi, onları dəyişdirib başqa şəklə salmaq səyləri mənasını itirər, insanlar dünyadan (həyatdan) üz döndərər, pisliklərlə, fəsadlarla barışar. İnsanın mövcudluğu ölümə doğru gedən varlıq kimi də özünü büruzə verir, bir həqiqətdir ki, ölüm qorxusu varlığın xarakteristikasıdır, şər isə pessimizmə girov olmamaqdır.

Bədii idrakın spesifikliyi bir də ondadır - həyat hadisələrinə qiymət verilməsi və bədii materialın özünün dəyərinin hesaba alınması nəzərdən keçirilir. Xüsusilə, poeziyanın emosional və intellektual təbiəti şairdən yeri gələndə hipotetik xassəli fikirlərə ögeylik göstərməməsidir. Bu prosesdə şairin lirik - epik ricəti, təhkiyəsi və intonasiyası məzmunun fəlsəfəsini açır, eyni zamanda sosial - tarixi şəraiti nəzərə alır. "Həyat fəlsəfəsi" şeirində Məninə qayıdır və bütün fəsadlardan, pisliklərdən ucada dayanır. Dünyaya şöhrət olduğunu pafosla bəyan edir.

**Dünyaya bir şöhrət yaranmışıq biz,**
**Günəş çökməmişdir qaranlığa diz.**
**Qoy olsun yamanlıq, o xain iblis!**

**Yaxşılıq çağırsın hər qəlbin neyi,**
**Qurtaraq zəncirdən Promoteyi...**

Səməd Vurğunun "Həyat fəlsəfəsi" şeiri klassikliyini qorumaqdadır və ona naməhrəm əl toxunmamalıdır, poetik nümunədə həyat materialı mənəvi sərvətlərini inkar etmir, didaktik - fəlsəfi ovqatla müəyyən dövrün sərhədlərini adlayır, aşıb keçir və sonrakı nəsillərin bədii mühakiməsinə verilir ki, yenidən qavranılsın. Klassik əsərlər isə ümumbəşər sərvətlər toplusudur, insan taleyinə analitik, intellektual və emosional yanaşma nümunəsidir. Oxucular "dünyanın vəziyyəti"lə qarşılaşır və insan - varlıq konsepsiyasını istisna etmir. Necə ki, S.Vurğun Fəlakət (şər) və Səadət (xeyir) anlamlarını üzbəüz qoyur, cəmiyyətin gələcək taleyindən ayırmır.

**Fəlakət qocalmış... qartdır o köpək,**
**Onun sümükləri tez çürüyəcək...**
**Səadət - gənclikdir adı - gələcək!**
**Onun gözlərində həyat eşqi var -**
**Var olsun gələcək! Var olsun bahar!**

Səməd Vurğun "Həyat fəlsəfəsi" şeiri haqında 1935-ci ildə yazmışdır: "Mən öz yaradıcılığım qarşısında bir məqsəd qoymuşam: varlığımızın poeziyasını açıb göstərməklə, həyatımızın mühüm ideyalarını fəlsəfi ümumiləşdirmələrə vermək, bilirəm ki, bu çətin yoldur". (Bax, Sovet yazıçıları. Tərcümeyi - hal (rus dilində), I cild, Moskva, 1959-cu il).

S.Vurğun "Həyat fəlsəfəsi" şeirini yazdı. Antroposentrik təlimə görə, insan Dünyanın son məqsədini burada tapır. Lakin onun qarşısında acizdir, doğulacaqlar, dünyadan köçəcəklər - bütün canlılara aiddir.

**Quşlar qatar-qatar ellərdən keçər,**
**Bəşər nəsil-nəsil dünyadan köçər,**
**İnsanlıq gah zəhər, gah şərbət içər.**